Gəzirik, yoxdu bizim daimi bir məsgənimiz,
Canımız harda çıxarsa, qalar orda tənimiz..

Ən yaxın dostumuz ancaq bizə-bizdən yaranar,
Bizə-bizdən doğular təhlükəli düşmənimiz.

Biz bu tufanlı dənizdə üzürük, gözdən itək,
Böyük eşqin kiçicik parçasıdı yelkənimiz.

Girmərik özgəsinin bağına gül dərmək üçün,
Çünki vardır bizim öz bağımız, öz gülşənimiz.

Salmışıq dən bu qara saçlara, tale quşunuz,
Qonan an başımıza, verməyə olsun dənimiz.

Ey Dadaş, bizləri sözdən yaradıbdır Yaradan,
Bu səbəb olmadı ustadımız, öyrətmənimiz...



■ Gülbala Dadaş

* * *

Bu uzun ilğımlı yol coşmaqdadır dərya kimi,
Mən də üstündə onun getməkdəyəm İsa kimi.

Çox uzaqsan sən mənə, yoxdur uzaq məndən sənə,
Çox yaxınsan sən mənə, xülya kimi röya kimi.

Aç aradan pərdəni göstər mənə öz çöhrəni,
Razıyam, qoy lap qamaşsın gözlərim Musa kimi.

Dost olub divanələrlə ağıla gəldim, amma ki,
Eylədim mən ömrümün gülzarını səhra kimi.

Can atır canın fəda etsin o canə çoxları,
Bir nəfər seçmiş oda, məlum deyil amma kimi.

Qalmadan tək, təkliyin mahiyyətin dərk eylədim,
Anladım ki, təkləyir kimlər görür tənha kimi.

Bir fikir gəlmiş və bir digər fikir getmiş Dadaş,
Hər zaman dolmuş, boşalmış başımız dünya kimi.

* * *

Ey can, sənə zülm eylədi cananə doyunca,
Zövq almadı ancaq ki, bu divanə doyunca.

Ey can, səni yaxsın qoy o can atəşi-eşqə,
Yandır özünü, ta ki o can, canə doyunca.

Ey can, mənə qəsd eyləyib öldürsə də hüsnün,
Baxdım diri iykən sənə amma nə doyunca!

Ey can, mənə az-az gətirir badəni saqi,
Məst olmur odur, aşiqi-məstanə doyunca.

Söndürmə dağım-şəmini ahınla Dadaş, çün
Yandırmayıb öz canını pərvanə doyunca...

* * *

Ruhuma zülm eləyir eylədiyim nöqsanlar,
Çox çətin ki, yer üzündə məni bir kəs anlar.
Ey bu dünyadan o dünyaya gedən insanlar,
Gözləyin məndə gəlim...

Yaralı qəlbimi incitməyiniz yalvarıram,
Mən sağ ikən ölü zənn etməyiniz yalvarıram...
Məni bu qəbirə qoyub getməyiniz yalvarıram,
Gözləyin məndə gəlim...

Çevrilim otlara mən, dağlara mən, daşlara mən,
Gəlməyim tuş deyə bu yerdəki qarğışlara mən.
Qanadım olsa, deyərdim o uçan quşlara mən,
Gözləyin mən də gəlim...

* * *

Şimala cənubun kəsişməsində itirdim hər şeyi.
Uzaq bir qışlaqda xatırladım bir şeyi.
Soruşma nəyi,
deyən deyiləm.
Baki-Xarkov qatarında getdi
ölməyə...
Ümid yoxdu geri gəlməyə.
Dur gedək!
Hara?!
Tənha söyüdün kölgəsində
Dincəlməyə.
ÖLDÜM istidən.

## VARİS

Çox qədim bir şəhərin varisiyəm,
Yaxşı olmağı bacarıram,
Belə pisin-pisiyəm.
Özümü sevdiklərimə istətmirəm,
İstəmədiklərimə istədirəm!
Ürəyimdən keçənləri etmirəm,
Keçə bilməyənləri etdirəm!
Uzun-qısa yolları düşünmədən gedirəm,
Çoxluğda çox sıxılıram...
Allahdan ötrü,
Allah boyda darıxıram.
Şeytanla görüşürəm hər gün,
Cəhənnəmi Cənnət eləmək üçün...
səni görmüşəm,
yaxın olmuşuq, məncə.
gündüz ya gecə,
bizdə, sizdə,
dəqiq bilmirəm, harda və necə.
Ancaq görüşmüşük...
bağışla, bu unutqanlığımı.
Gələcəksiz keçmişim
bir göz qırpımında
yaddaşımın gözlərini oydu!
bilməyərəkdən etdiyim səhvlərimi belə,
sol çiynimə qoydu!
Qorxma,
daha yerin qulağı yoxdu,
kəsib Qabilin öyrətməninə yedirmişəm!
çıxar rəngi ağarmış gecəni əynindən,
utanma, kasıb olmaq indi dəbdi.
Geyin küçəmizdəki çilləli qışı,
gedək Çin səddinə tərəf!
Yaza Allah-Kərimdi...

Kaspi 2020.- 15-17 fevral.- S.12.